# Mənim hovuzum bir aylıq yol məsafəsi qədər böyükdür, suyu süddən daha ağdır, qoxusu miskdən daha gözəldir

Abdullah bin Amrdan (Allah onların ikisindən də razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə söylədiyi rəvayət edilir: Mənim hovuzum bir aylıq yol məsafəsi qədər böyükdür, suyu süddən daha ağdır, qoxusu miskdən daha gözəldir, qədəhləri göyün ulduzları qədər çoxdur, ondan içən kəs heç zaman susamaz.
[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) Qiyamət günü öz hovuzundan bəhs edərək, onun uzunluğu və genişliyinin bir ay gedəcək qədər böyüklükdə olduğu barədə xəbər vermişdir. Həmçinin suyunun süddən daha bəyaz, ondan gələn qoxunun miskdən daha gözəl, qədəhlərinin səma ulduzları qədər çox olması və bu qədəhlərdən içənin isə heç zaman susuzlamaycağını xəbər vermişdir.



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee